*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2006-cı il 18 yanvar tarixli,*
*18 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Universal telekommunikasiya xidmətlərinin göstərilməsi üçün operatora, provayderə lazım olan vəsaitin ayrılması və bu məqsədlə sərf olunan vəsaitin geri qaytarılması (kompensasiya)

# Qaydaları

## *I. Ümumi müddəalar*

1.1. Bu Qaydalar «Telekommunikasiya haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli, 277 nömrəli Fərmanına əsasən hazırlanmışdır və universal telekommunikasiya xidmətlərinin göstərilməsi üçün operatora, provayderə lazım olan vəsaitin ayrılması və bu məqsədlə sərf olunan vəsaitlərin geri qaytarılması (kompensasiya) qaydalarını müəyyən edir.

1.2. Universal telekommunikasiya xidmətlərinin (bundan sonra — UTX) təsnifatı, təşkili, keyfiyyəti, müddəti və digər tələbləri «Telekommunikasiya haqqında» Azərbaycan Respublikası Qanununun 31.3-cü maddəsində müəyyən edilmiş prinsiplərə və «Telekommunikasiya haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli, 277 nömrəli Fərmanının 2.3-cü bəndinə əsasən Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (bundan sonra — RİTN) tərəfindən müəyyən edilir.

## *II. Universal telekommunikasiya xidmətləri (UTX) vəsaitlərinin toplanması və formalaşdırılması*

2.1. UTX göstərilməsinin maliyyələşdirilməsi üçün mərkəzləşdirilmiş Universal Telekommunikasiya Xidmətləri Hesabı (bundan sonra — UTXH) açılır və bu hesaba toplanmış vəsaitlərdən RİTN-in qərarına əsasən «Telekommunikasiya haqqında» Azərbaycan Respublikası Qanununun 31.5-ci maddəsində nəzərdə tutulmuş xidmətlərin göstərilməsində istifadə edilir.

2.2. Həmin hesab Dövlət Xəzinədarlığında açılır və UTX üzrə bütün əməliyyatlar bu hesab vasitəsilə həyata keçirilir.

2.3. UTXH-yə aşağıdakı mənbələrdən vəsaitlər köçürülür:

2.3.1. ümumistifadəli telekommunikasiya şəbəkəsində telekommunikasiya xidmətləri göstərən operatorlar, provayderlər tərəfindən Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilən məbləğdə ayırmalar;

2.3.2. ümumistifadəli telekommunikasiya şəbəkəsində telekommunikasiya xidmətləri göstərən operatorlara, provayderlərə, həmçinin digər hüquqi və fiziki şəxslərə ayrılmış nömrə resurslarından istifadəyə görə ödənişlər;

2.3.3. ümumistifadəli telekommunikasiya şəbəkələrində istifadə edilən telekommunikasiya vasitələri və qurğularına uyğunluq sertifikatlarının verilməsindən daxil olan ödənişlərin müvafiq hissəsi;

2.3.4. UTXH-yə bu Qaydaların 2.3.1-ci, 2.3.2-ci və 2.3.3-cü yarımbəndlərində göstərilən ayırmalar UTX göstərən operatora, provayderə sərf olunan vəsaitin kompensasiya olunması üçün kifayət etmədiyi halda könüllü ayırmalar, qrantlar, texniki yardımlar və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına həyata keçirilir.

## *III. UTX operatoruna, provayderinə sərf olunan vəsaitin (kompensasiyanın) həcminin müəyyən edilməsi*

3.1. UTX operatoru, provayderi sərf olunan vəsaitin həcmini müəyyən etmək və əsaslandırmaq məqsədi ilə göstərdiyi UTX növləri üzrə gəlir və xərclərin ayrı-ayrılıqda uçotunu (bundan sonra — uçot) aparmalıdır.

3.2. UTX göstərən operator, provayder müsabiqə nəticəsində müəyyən edildikdə, sərf olunan vəsaitin geri qaytarılması (kompensasiyası) müqavilədə göstərilən məbləğdən yüksək olmamalıdır. Müqavilənin maliyyə şərtləri üzrə hər hansı dəyişiklik etmək zərurəti yaranarsa, bu, tərəflərin qarşılıqlı razılığına əsasən həyata keçirilir.

3.3. UTX göstərilməsi öhdəliyi operatorun, provayderin üzərinə qoyulduğu halda müqavilədə sərf olunan vəsaitin məbləği göstərilmir. Bunun üçün operator, provayder müqavilə bağlandıqdan sonra 6 ay müddətində sərf olunan vəsaitin məbləği barədə ilkin hesabatı RİTN-ə təqdim etməlidir.

3.4. İlkin hesabat araşdırılaraq RİTN tərəfindən qərar verildikdən sonra operatora, provayderə sərf olunan vəsaitin 60,0 faizdən çox olmamaqla UTXH-dən avans olaraq vəsait ayrıla bilər.

3.5. Operator, provayder UTX göstərilməsini fasilələrlə həyata keçirirsə, bu halda kompensasiya yalnız xidmət göstərilən müddət üçün geri qaytarılır.

## *IV. UTX-nin göstərilməsi ilə bağlı operatora, provayderə sərf olunan vəsaitin geri qaytarılması (kompensasiyası)*

4.1. UTX operatoru, provayderi hər təqvim ilinin nəticələrinə uyğun olaraq sərf olunan vəsaitin geri qaytarılması üçün hesabat ilindən sonrakı ilin aprel ayının 1-dən gec olmayaraq, təsdiq olunmuş formaya uyğun rəsmi sorğu ilə RİTN-ə müraciət edir. Müraciətə aşağıdakı sənədlər əlavə olunur:

4.1.1. xidmət növləri üzrə gəlir və xərclərin ayrı-ayrılıqda uçotuna əsasən hazırlanmış sərf olunan vəsaitin hesabatı;

4.1.2. illik mühasibat hesabatlarının surəti.

4.2. RİTN UTX operatoru, provayderi tərəfindən təqdim olunmuş sənədləri yoxlayır və sərf olunan vəsaitin geri qaytarılması ilə əlaqədar sorğuların uçotunu aparır. Bu

Qaydaların 4.1-ci bəndində göstərilən sənədlər operator, provayder tərəfindən tam təqdim edilmədiyi halda, həmçinin sərf olunan vəsaitin müəyyənləşdirilməsi üçün hesabatın düzgün aparılmasını təsdiqləyən sənədlər tam təqdim edilmədiyi halda RİTN operatordan, provayderdən həmin sənədləri tələb edir. Operator, provayder sorğunu aldıqdan sonra 10 gün müddətində tələb olunan sənədləri RİTN-ə təqdim etməlidir.

4.3. Operatora, provayderə sərf olunan vəsaitin hesabatına dair sənədlər tam halda RİTN-ə təqdim edildikdən sonra 30 gün ərzində RİTN hesabatın dəqiq aparılmasını yoxlayır və aşağıdakı qərarlardan birini qəbul edərək bu barədə operatora, provayderə yazılı şəkildə məlumat verir:

- sərf olunan vəsaitin tam şəkildə kompensasiya edilməsi;
- sərf olunan vəsaitin qismən kompensasiya edilməsi;
- sərf olunan vəsaitin kompensasiya edilməsindən imtina;

4.3.1. operatora, provayderə sərf olunan vəsaitin qismən kompensasiya edilməsi barədə qərar aşağıdakı hallarda qəbul edilir:

- operatorun, provayderin UTXH-yə borcu yarandıqda, həmin borc miqdarında;
- sərf olunan vəsaitin hesabatı düzgün aparılmadığı halda;

4.3.2. operatora, provayderə sərf olunan vəsaitin kompensasiya edilməsindən imtina barədə qərar aşağıdakı hallarda qəbul edilir:

- operator, provayder tərəfindən təqdim edilmiş sənədlər bu Qaydalarda göstərilən tələblərə uyğun olmadıqda;
- operator, provayder tərəfindən təqdim edilmiş hesabatdakı məlumatlar qeyri-dəqiq və təhrif edilmiş olduqda;
- operatorun, provayderin UTXH-yə təqdim olunmuş hesabatda göstərilən məbləğdən çox borcu olduqda;

4.3.3. operatora, provayderə sərf olunan vəsaitin qismən kompensasiya edilməsi və yaxud sərf olunan vəsaitin kompensasiya edilməsindən imtina barədə qərarlar bu Qaydaların tələblərinə uyğun olaraq konkret faktlar göstərilməklə əsaslandırılmalıdır.

4.4. Operatora, provayderə sərf olunan vəsaitin tam və yaxud qismən kompensasiya edilməsi barədə qərar qəbul edildikdən sonra 20 gün ərzində RİTN UTXH-dən həmin vəsaitin ödənilməsi barədə qərar qəbul edir.

4.5. Operator, provayder ona sərf olunan vəsaitin qismən kompensasiya edilməsi və yaxud kompensasiya edilməsindən imtina barədə qərarla razılaşmadığı halda, həmin qərarı aldıqdan sonra 30 gün müddətində RİTN-ə yazılı surətdə etirazını bildirə bilər. Bu halda sənədlərin təkrar yoxlanması təşkil edilir. Araşdırmanın nəticəsinə əsasən operatora, provayderə sərf olunan vəsaitin kompensasiya edilməsindən əsassız olaraq imtina və ya qismən kompensasiya edilməsi təsdiq olunarsa, RİTN həmin vəsaitlərin 20 gün müddətində kompensasiyası barədə qərar qəbul edir.

4.6. Müsabiqənin şərtlərində operatora, provayderə kompensasiyanın yalnız ildə bir dəfə geri qaytarılması nəzərdə tutula bilər. Bu halda bu Qaydaların 4.1-ci bəndində göstərilən

bütün sənədlər operator, provayder tərəfindən RİTN-ə yalnız hər ilin yekun nəticələrinə görə təqdim edilir.

## *V. Yekun müddəalar*

5.1. UTX göstərən operator, provayder hər il oktyabr ayının 15-dən gec olmayaraq, növbəti il üçün UTX göstərilməsi ilə əlaqədar gəlirlər və xərclər barədə proqnozları RİTN-ə təqdim edir.

5.2. UTX operatoru, provayderi təqdim etdiyi hesabatların düzgünlüyünə mövcud qanunvericiliyin tələblərinə görə məsuliyyət daşıyır.

5.3. UTX operatorunun, provayderinin RİTN-ə göndərdiyi müraciətlər, hesabat sənədləri və yoxlamanın nəticələrinə dair bütün sənədlər həmin operator və provayderlə bağlanan müqavilənin müddəti başa çatdıqdan sonra qanunvericiliklə müəyyən edilmiş müddətdə saxlanılır.

5.4. UTX göstərilməsi nəticəsində operatora, provayderə sərf olunan vəsaitin kompensasiya edilməsi ilə əlaqədar yaranan mübahisələr mövcud qanunvericiliyin tələblərinə uyğun həll edilir.

---

© *VneshExpertService LLC*